Yarışın açılış mərasimində Təhsil Nazirliyinin, yerli icra orqanlarının və idman ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Xaçmaz Olimpiya İdman Kompleksində keçirilən zona yarışında Sumqayıt şəhərinin, Xaçmaz, Quba, Qusar, Şabran, Xızı, Siyəzən, Qobustan, Abşeron və Qubadlı rayonlarının komandaları mübarizə aparıblar. 1-ci yeri Sumqayıt şəhərinin, 2-ci yeri Abşeron, 3-cü yeri isə Xaçmaz rayonunun komandaları tutublar.

Qaliblər Təhsil Nazirliyinin diplom və medalları ilə təltif olunub.